Vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəsi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü İlkin Şahbazovun 2014-cü il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 62 saylı Saatlı seçki dairəsi üzrə Şirinbəyli bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizədlər Hüseynov Mübariz Əmiraslan oğlunun və Hüseynov Soltanəli Qulu oğlunun Mərkəsi Seçki Komissiyasına daxil olmuş 01 yanvar 2015-ci il tarixli 102 saylı müraciəti üzrə

**RƏYİ**

Bakı şəhəri 03 yanvar 2015-ci il

Mən, ekspert qrupunun üzvü İlkin Şahbazov 2014-cü il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 62 saylı Saatlı seçki dairəsi üzrə Şirinbəyli bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizədlər Hüseynov Mübariz Əmiraslan oğlunun və Hüseynov Soltanəli Qulu oğlunun Mərkəsi Seçki Komissiyasına daxil olmuş 01 yanvar 2015-ci il tarixli 102 saylı müraciətini araşdıraraq müəyyən etdim:

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin və “Azərbaycan Respublikasının Mərkəsi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat”ın tələblərinə uyğun tərtib edildiyindən araşdırmaya qəbul edilmişdir.

2014-cü il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 62 saylı Saatlı seçki dairəsi üzrə Şirinbəyli bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizədlər Hüseynov Mübariz Əmiraslan oğlu və Hüseynov Soltanəli Qulu oğlu 2015-ci il yanvarın 1-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına müraciət edərək, həmin seçki dairəsi üzrə 22 və 23 saylı seçki məntəqələrində səsvermə günü qanun pozuntularına yol verildiyini iddia etmiş və bu halların aradan qaldırılması üçün ona köməklik göstərilməsini xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112 və 112-1-ci maddələrinə və “Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat”ın tələblərinə uyğun olaraq Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən araşdırılaraq bu barədə müvafiq rəy verilmiş və Mərkəzi Seçki Komissiyasının iclasında baxılmışdır.

Azərbaycan Respublikası Seçki Məcəlləsinə və yuxarıda göstərilən Təlimatın 8.6-cı bəndinə uyğun olaraq şikayət və ya müraciət aidiyyət qaydalarının pozulması ilə daxil olmuşdursa, onda həmin müraciətin aidiyyəti üzrə göndərilməsinə dair qərar qəbul edilməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və “Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında” Təlimatın 1, 2, 4, 6, 7 və 8-ci bəndlərinə əsasən **rəyə gəldim:**

1. 62 saylı Saatlı seçki dairəsi üzrə Şirinbəyli bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizədlər Hüseynov Mübariz Əmiraslan oğlunun və Hüseynov Soltanəli Qulu oğlunun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 1 yanvar 2015-ci il tarixli 102 saylı müraciəti araşdırılması üçün aidiyyəti üzrə 62 saylı Saatlı seçki dairəsi dairə seçki komissiyasına göndərilsin.

2. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxslərə göndərilsin.

Ekspert qrupunun üzvü İlkin Şahbazov